ədalət.-2017.-30 mart.-S.4.

# Hansı şairimizin misraları dilinizdən düşmür?

**Elə şeirlər var ki, xatirələrimiz kimi yaddaşımıza hopub. Tez-tez misralar dilimizdən düşmür. Sevdiyimiz adamlar kimi misralar da həyatımızın parçasına çevrilir.**

Adalet.az yazar, şairlərimizə sorğu ünvanlayıb - "Hansı şairimizin misraları dilinizdən düşmür?"

**Yazıçı Nəriman Əbdülrəhmanlı:** "Belə şairlər bir neçədi. Arif Mustafazadənin, İsa İsmayılzadənin, Səməd Qaraçöpün, Zakir Məmmədin, Allahverdi Təhlələnin, Nurafizin, Ramiz Qusarçaylının, Tapdıq Yolçunun, Afiq Muxtaroğlunun, Rafiq Hümmətin... Yaddaşımda qalan şeirlərini və misralarını hərdən söyləməyi sevirəm".

**Yazıçı Şərif Ağayar:** "Şeir yaddaşım yaxşıdır. Tanınmış, tanınmamış çox şairdən nələrsə bilirəm. Amma əsas siyahım aşağıdakı kimidir: Füzuli, Aşıq Ələsgər, Səməd Vurğun, Əli Kərim, Sücaət, Ramiz Rövşən, Vaqif Bayatlı, Murad Köhnəqala, Salam Sarvan..."

**Yazıçı Varis Yolçuyev:** "Müxtəlif illərdə müxtəlif ovqatdan asılı olaraq bu misralar müxtəlif olub. Hal-hazırdakılar Almas İldırımdandır:

**Azərbaycan, mənim taxtım, tacım, oy.**
**Oyanmazmı kor olası baxtım oy!"**

**Şair Cəlil Cavanşir:** "Hər ovqatın, hər ruh halının öz şairi, öz şeiri var. Bəzən Əli Kərim, bəzən Vaqif Bayatlı, Bəzən Salam Sarvan, bəzən Aqşin Yenisey, Qismət, Əsəd Qaraqaplan şeirlərinin ovqatında oluram. Bəzən müəllifini unutduğum misraları dua kimi vird edirəm. Sonra oturub düşünürəm, müəllifini yadıma sala bilmirəm. Ən çox sevdiyim və bəlkə də yeganə əzbər bildiyim şeir Salam Sarvanın şeiridir. Əksər məclislərdə deyirəm. Bir dəfə Salamın özünün də olduğu məclisdə dedim həmin şeiri. Salam da fikrə getdi və dedi ki, mən o şeirdən çoxdan imtina etmişəm.

Bəzən tez-tez təkrar etdiyimiz misralar, yaddaşımıza qazınan misraların ədəbi-bədii çəkisi də olmur. Yaddaşımızda qalan misraların ruhumuzla, təhtəlşüurumuzla əlaqəsi var. Məsələn, hazırda Şəhriyar del Geraninin misraları beynimin hansısa bir nöqtəsində aramsız təkrarlanır".

**Şairə Elnaz Eyvaz:** "Adətən ürəyimdə Cəfər Cabbarlının "Ana" şeirinin şah misralarını (Ana! Ana! Bu adın qarşısında bir qul tək.. ), bir də Nəsiminin "Məndə sığar iki cahan, Mən bu cahana sığmazam" misralarını təkrar edirəm".

**Yazıçı Murad Köhnəqala:** "Sualınızı yaxşı anlayıram. Adam var aylarla səhərdən-axşama hansısa məsəli, yaxud bir musiqinin ritmini və ya hansısa filmdəki dialoqun sözlərini beynindən çıxara bilmir. Bəziləri bunu ürəyində eləyir, bəziləri isə özünü saxlaya bilməyərək yerli-yersiz ucadan söyləyir. Sevdiyim şairlərimiz çoxdu, ancaq heç birisinin misrasını beynimin çarxlı dişlərində hərləmirəm. Yəni belə bir mərəzim yoxdu".



**Şair Aqşin Evrən:** "Salam Sarvanın "İt bağla xalıdan qaçmış ilməyə" şedevrini... Bu misranın əsasında bir tammetraj film çəkmək olar".

**Yazar Günel Natiq:** "Mən Nazim Hikmətin şeirləriylə həyatı və insanları tanımışam. Onun "Gülhanə parkında" şeiri dilimin əzbəridir.

**Mən bir ceviz ağacıyam Gülhanə parkında**
**Nə sən bunun fərqindəsən, nə polis fərqində.**

Dəfələrlə özüm də bu hissləri keçirmişəm. Özümü İstanbulun Gülhanə parkındakı həmin o ağac kimi hiss eləmişəm, hansının ki, heç kim ordakı mövcudluğunun fərqində deyil.

Ramiz Rövşənin "Ayrılıq" şeiri də mənim həyata baxışımın bir aynası olub. Ətrafımdan keçən kişili-qadınlı insanlara qəhrəmanın gözləriylə, ürəyiylə baxmışam.

**Yenə bu şəhərdə üz-üzə gəldik,**
**Neyləyək, ayrıca şəhərimiz yox**
**Bəlkə də biz xoşbəxt ola bilərdik,**
**Bəlkə də xoşbəxtik, xəbərimiz yox.**

Bəzən mənə elə gəlib ki, mən də bu şeirin, bu misraların taleyini yaşayıram. Ya da həmin şairin "Kölgə" şeiri.

**Sənin kölgən düşür burda hər şeyə,**
**Bu evə, yorğan-döşəyə,**
**Körpəm mışıl-mışıl yatan beşiyə...**
**Şeirin sonrakı misraları da ürəyimə**
**bir ağrı kimi sancılır**
**Görəsən bir azcıq səni unudub,**
**Birtəhər başımı qatarammı heç?**
**Görəsən kölgənin ucundan tutub,**
**Gəlsəm, gəlsəm sənə çatarammı heç?**

Dilimin əzbəri olan şeirlər çoxdir. Məsələn, Vaqif Bayatlının bu misraları

**Mən söz bəlasıyam**
**zalım tifili.**
**Sürüşüb alnımdam tanrının əli**
**daha sən də**
**sən də ağladammazsan məni**
**mən zalım adamam, kamança.**
**Belə misralar o qədərdir...**

Hələ cavan nəsil hesab olunan Aqşin Yeniseyin şeirlərini çox bəyənirəm. Bu şeirlərdəki poetik fikrin dərinliyi məni sarsıdır. Şərhriyar del Geraninin şeirləri maraqlıdır... Onun "Dekabr şeiri" xüsusilə çox sevilir. Aqşin Evren, Qismət Rüstəmov, Oğuz Ayvaz, Ruzbeh Məmməd və digər şairləri də mütaliə edirəm, onların poeziyası da maraqlıdır, oxucunu özünə çəkir. Məncə, son dövr Azərbaycan poeziyası daha rəngarəng və orijinaldır.

**Oğuz Ayvaz**